ARTİ

AZƏRBAYCAN RESPUBLİKASININ
TƏHSİL İNSTİTUTU

# ELMİ NƏŞRLƏRLƏ

*bağlı tez-tez verilən suallar*

## 1

## JURNAL AXTARIŞINA NECƏ BAŞLAMAQ LAZIMDIR?

- *Elmmetrik bazalarda sahəyə (məsələn: Education) uyğun axtarış edin.*
- *Tədqiqat mövzunuzun axtarış nəticəsində tapdığınız jurnalların əhatə dairəsinə (scope) uyğunluğunu yoxlayın.*
- *Uyğun gələn jurnalların nəşr prosesini araşdırın.*

## 2

## JURNAL SEÇƏRKƏN ƏN VACİB MEYARLAR HANSILARDIR?

- *Məqalənin mövzusunun jurnalın əhatə dairəsinə (scope) uyğunluğu*
- *Jurnalın indekslənmə statusu*
- *Jurnalın impakt faktor və ya SJR göstəricisi*
- *Jurnalın nəşr siyasəti (publishing policy)*
- *Jurnalın kvartil səviyyəsi*
- *Jurnalın istinad sayı (citation)*
- *Jurnalın nəşr tezliyi (il ərzindəki nəşr sayı)*
- *Məqalənin dəyərləndirmə və qəbul müddəti*

## 3

## TƏDQİQAT MÖVZUSUNUN JURNALIN ƏHATƏ DAİRƏSİNƏ UYĞUN OLUB-OLMADIĞINI NECƏ MÜƏYYƏN EDİM?

*Jurnalın "Aims and Scope" bölməsini yoxlayın. Tədqiqatınızın mövzusunun jurnalın əhatə dairəsinə uyğunluğu nə qədər yüksəkdirsə, qəbul ehtimalı da bir o qədər artır.*

## 4

## JURNALIN ƏHATƏ DAİRƏSİNƏ (SCOPE) UYĞUNLUQ NİYƏ BU QƏDƏR VACİBDİR?

*Jurnalın əhatə dairəsinə uyğun olmayan tədqiqatlar adətən ilkin mərhələdə (desk rejection) rədd cavabı alır. Buna görə də tədqiqat göndərilməzdən əvvəl jurnalın "Aims and Scope" bölməsi diqqətlə yoxlanılmalıdır.*

## 5

## ELMİ MƏQALƏMİ HANSI BAZALARDA İNDEKSLƏNƏN JURNALLARA GÖNDƏRSƏM DAHA ETİBARLI OLAR?

*Məqalələrin beynəlxalq elmmetrik bazalarda indekslənən jurnallara göndərilməsi tövsiyə olunur. Beynəlxalq elmmetrik bazalara bir neçə nümunə aşağıda təqdim olunmuşdur:*

- *Web of Science (WoS)*
- *Scopus*
- *ERIH Plus*
- *ERIC*
- *EconLit*
- *UGC CARE*

AKTİ

## 6

## JURNALIN İNDEKSLƏNMƏ STATUSU NƏDİR?

*Jurnalın indekslənmə statusu onun hansı beynəlxalq elmmetrik bazalarda (məsələn, Scopus, Web of Science və s.) indeksləndiyini göstərir. Bu status jurnalın elmi nüfuzunun, keyfiyyətinin və beynəlxalq səviyyədə tanınmasının əsas göstəricilərindən biridir. Hər bir elmmetrik baza üçün müvafiq siyahılara (Web of Science - Master Journal List, Scopus - Source List və s.) baxılmalıdır.*

## 7

## JURNALIN İMPAKT FAKTORU VƏ YA SJR GÖSTƏRİCİSİ NƏDİR?

*Jurnalın impakt faktoru (Impact Factor) və SJR (SCImago Journal Rank) göstəricisi jurnalın elmi təsir gücünü və nüfuzunu ölçən əsas göstəricilərdəndir. İmpakt faktoru Web of Science elmmetrik bazasının 2 illik məlumatları əsasında bu bazada indekslənən jurnallar üçün hesablanır. SJR isə Scopus elmmetrik bazasının 3 illik məlumatları əsasında bu bazada indekslənən jurnallar üçün hesablanır.*

## 8

## JURNALIN NƏŞR SİYASƏTİ DEDİKDƏ NƏ NƏZƏRDƏ TUTULUR?

*Jurnalın nəşr siyasəti (publishing policy) jurnalın məqalələri qəbuletmə, qiymətləndirmə və dərc etmə prosesi ilə bağlı qaydalar və prinsiplər toplusudur. Nəşr siyasəti jurnalın rəyvermə (peer-review) prosesini, müəllif təlimatlarını (author guidelines), etik prinsipləri (ethics policy) və s. əhatə edir.*

## 9

## Q1, Q2, Q3 VƏ Q4 NƏ DEMƏKDİR?

*Jurnallar keyfiyyət, prestij və təsir gücünə görə 4 kvartilə bölünür:*

- *Q1 – ən yüksək səviyyə (top 25%)*
- *Q2 – yüksək səviyyə (25–50%)*
- *Q3 – orta səviyyə (50–75%)*
- *Q4 – aşağı səviyyə (bottom 25%)*

## 10

## İSTİNAD (CITATION) SAYI NİYƏ VACİBDİR?

*İstinad sayı (citation count) elmi bir naşrə digər elmi işlərdə edilən istinadların ümumi sayını göstərir. Bu göstərici tədqiqatın elmi ictimaiyyət tərəfindən nə dərəcədə tanınmasını və onun akademik təsir gücünü qiymətləndirmək üçün istifadə olunur. İstinad sayını yoxlamaq üçün məqalənin adını və ya müəllifin adını Web of Science, Scopus və s. kimi elmmetrik bazalarda axtarmaq və həmin mənbə üzrə verilmiş "Cited by" (istinad edənlər) bölməsi vasitəsilə tədqiqat işinə neçə dəfə  və hansı nəşrlərdə istinad edildiyini müəyyən etmək olar.*

## 11

## JURNALIN NƏŞR TEZLİYİ (İL ƏRZİNDƏKİ NƏŞR SAYI) NİYƏ VACİBDİR?

*Jurnalın il ərzində bir neçə dəfə nəşr olunması (issue sayı) məqalənizin daha tez çap olunmasına təsir edə bilir.*

## 12

## BİR MƏQALƏNİN JURNALDA DƏYƏRLƏNDİRMƏ VƏ QƏBUL MÜDDƏTİ TƏQRİBİ NƏ QƏDƏR ÇƏKİR?

*Bu müddət jurnaldan asılı olaraq dəyişir. Adətən 1-2 aydan 6 aya qədər davam edə bilər. Çox qısa müddət vəd edən jurnallara qarşı ehtiyatlı olmaq lazımdır. Müddət barədə məlumatı jurnalın saytından əldə etmək mümkündür.*

## 13

## **"OPEN ACCESS"** (HƏRKƏSƏ AÇIQ) JURNAL NƏ DEMƏKDİR?

*"Open Access" jurnallarda adətən elmi məqalələr oxucular üçün açıq və pulsuz şəkildə əlçatan olur. Lakin bu, bütün jurnallara və məqalələrə şamil olunmur. Bəzi müəssissə və təşkilatların abunəliyi və ya nəşriyyatla xüsusi razılaşması olur, belə hallarda həmin müəssissələrin nümayəndələri ödənişli nəşrləri ödənişsiz şəkildə əldə edə bilir. Digər hallarda isə oxucu özü müvafiq ödənişi etməklə nəşri əldə edə bilir.*

## 14

## MƏQALƏNİ HANSI FORMATDA HAZIRLAMAQ LAZIMDIR?

*Hər jurnalın öz format tələbləri var. Bu tələblər "Guide for Authors" bölməsində göstərilir.*

## 15

## MƏQALƏ NEÇƏ SƏHİFƏ VƏ YA SÖZ OLMALIDIR?

*Bu, jurnaldan asılıdır. Adətən 5000–8000 söz arası olur, lakin konkret limitlər jurnal tərəfindən müəyyən edilir. Bu tələb də “Guide for Authors” bölməsində göstərilir.*

## 16

## **“GUIDE FOR AUTHORS”** NƏDİR VƏ NİYƏ VACİBDİR?

*“Guide for Authors” jurnalın müəlliflər üçün təlimatıdır. Məqalənin strukturu, formatı, istinad qaydaları və digər texniki tələblər burada göstərilir. Məqalə göndərilməzdən əvvəl bu bölmə mütləq oxunmalı və məqalənin son versiyası bu təlimata əsasən hazırlanmalıdır.*

## 17

## **APC** NƏDİR?

*APC (Article Processing Charge) məqalənin nəşri üçün tələb olunan ödənişdir. Bəzi jurnallarda bu haqq tələb olunur, bəzilərində isə tələb olunmur.*

ARTİ

## 18

## MƏQALƏ YAZARKƏN ƏN ÇOX EDİLƏN SƏHVLƏR HANSILARDIR?

- *Məqalənin mövzusunun seçilən jurnalın əhatə dairəsinə uyğun gəlməməsi*
- *Jurnalın format tələblərinə əməl edilməməsi*
- *Məqalənin xülasəsinin (abstract) ya həddindən artıq qısa, ya da çox uzun olması*
- *Giriş (Introduction) hissəsinin kifayət qədər əhatəli olmaması*
- *Metodologiyanın zəif yazılması*
- *Nəzəri çərçivənin (theoritical framework) yetərli olmaması*
- *Nəticələrin interpretasiyasının əsaslandırılmaması*
- *Statistik analizdə xətaların olması*
- *Tədqiqatın məhdudiyyətlərinin (limitations) qeyd edilməməsi*
- *Müzakirə (discussion) hissəsinin zəif yazılması və ya olmaması*
- *Nəticə (conclusion) hissəsinin yazılmaması və ya natamam olması*
- *İstinad sayının az olması*
- *Akademik etikanın pozulması halları*

## 19

## MƏQALƏDƏ NEÇƏ MÜƏLLİF OLA BİLƏR?

*Müəllif sayında limit yoxdur. 1,2,3... və s. ola bilər. Lakin yalnız real töhfə verən şəxslər müəllif kimi göstərilməlidir.*

# 20

## CAVABDEH MÜƏLLIF - **“CORRESPONDING AUTHOR”** KİMDİR?

*“Corresponding author” jurnal ilə bütün yazışmaları aparan və prosesi idarə edən cavabdeh müəllifdir. Bu şəxs məqaləni jurnala təqdim edir, ilkin yoxlanış və “peer-review” mərhələsində redaksiya heyəti ilə əlaqəni təmin edir, tələb olunan məzmun və texniki düzəlişləri edir. Qeyd etmək lazımdır ki, “corresponding author” mütləq birinci müəllif olmaq məcburiyyətində deyil; bu rol adətən prosesi və tədqiqatı koordinasiya edən şəxsə verilir.*

# 21

## **COVER LETTER** NƏDİR?

*Bəzi jurnallar cover letter tələb edir. Cover letter məqalə təqdim edilərkən redaktora ünvanlanan qısa və rəsmi məktubdur və məqalənin “ilk təqdimatı ” kimi çıxış edir. O, adətən bir səhifədən qısa olur və tədqiqatın məqsədini, əsas nəticələrini, aktuallığını və jurnalın məqsəd və əhatə dairəsinə uyğunluğu barədə məlumatları özündə ehtiva etməlidir. Məktubda lazımsız detallardan qaçınmalı, lakin tədqiqatın sahəyə verə biləcəyi töhfə və əhəmiyyət vurğulanmalıdır. Bundan əlavə, cover letterdə maliyyələşmə məlumatları, müəllif bəyannamələri və ya rəyçi təklifləri yer almamalıdır; bu məlumatlar adətən ayrıca tələb olunur. Bununla yanaşı, hər bir jurnalın spesifik tələbləri ola bilir, buna görə də tədqiqatçının jurnalın vebsaytında “guide for authors” bölməsinə nəzər yetirməsi tövsiyə olunur.*

## 22

## **PLAGİAT** (PLAGIARISM) NƏDİR VƏ NECƏ YOXLANILIR?

*Plagiat müəllif göstərilmədən hər hansı bir ideyanın, fikrin, mətnin istifadə olunmasıdır. Bu, akademik etikanın pozulması halıdır və jurnallar tərəfindən qəbuledilməz hal kimi dəyərləndirilir. Jurnallar təqdim olunan məqalələri xüsusi plagiat yoxlama proqramları vasitəsilə analiz edir. Bu məqsədlə ən geniş istifadə olunan alətlərə Turnitin və iThenticate daxildir. Məqaləni təqdim etməzdən əvvəl müəllifin də bu cür proqramlardan istifadə etməsi tövsiyə olunur.*

## 23

## PLAGİAT FAİZİ NEÇƏ OLMALIDIR?

*Bu, jurnalın siyasətindən asılı olaraq dəyişir. Ancaq adətən mümkün qədər aşağı olması tövsiyə olunur (5%-10%). Yüksək impakt faktorlu jurnallar üçün plagiat səviyyəsinin adətən* ***10%-dən aşağı*** *olması tələb olunur, çünki bu nəşrlər orijinallığa və elmi yeniliyə xüsusi önəm verir.*

## 24

## EYNİ MƏQALƏNİ BİR NEÇƏ JURNALA GÖNDƏRMƏK OLARMI?

*Xeyr. Eyni məqalənin paralel olaraq bir neçə jurnala göndərilməsi etik qaydalara ziddir. Bir jurnaldan imtina aldıqdan sonra məqalə başqa jurnala göndərilə bilər. Yaxud məqalənizi geri çəkmək istədiyinizi jurnala bildirdikdən sonra məqaləni başqa jurnala göndərə bilərsiniz.*

## 25

## MƏQALƏ JURNALA GÖNDƏRİLDİKDƏN SONRA MƏQALƏDƏ HƏR HANSI BİR DƏYİŞİKLİK ETMƏK MÜMKÜNDÜRMÜ?

*Məqalədə dəyişiklik etmək üçün müvafiq dəyişikliklərlə bağlı redaksiya heyəti məlumatlandırılmalıdır, razılaşdırıldıqdan sonra düzəliş etmək olar.*

## 26

## MƏQALƏM RƏDD CAVABI ALARSA, NƏ ETMƏLİYƏM?

*Məqalənizin rədd cavabı almağı bir neçə faktorla əlaqəli ola bilər. Məqalənizin keyfiyyətinin zəif olması, məqalə mövzunuzun jurnalın əhatə dairəsinə uyğun olmaması və s. səbəblərdən qaynaqlana bilər. Bu kimi hallarda ruhdan düşməməyiniz, rəyçi rəylərinə əsasən məqalənizi təkmilləşdirməyiniz və məqaləniz üçün daha uyğun jurnal axtarmağınız tövsiyə olunur.*

## 27

## "DESK REJECTION" NƏ DEMƏKDİR?

*"Desk rejection" məqalənin rəyçi mərhələsinə keçmədən redaktor tərəfindən birbaşa rədd edilməsidir. Əsas səbəblər bunlar ola bilər:*

- *Məqalənin mövzusu jurnalın əhatə dairəsinə uyğun deyil.*
- *Məqalənin keyfiyyəti jurnalın keyfiyyət səviyyəsinə görə çox aşağıdır.*

## 28

### "REVISE AND RESUBMIT" NƏ DEMƏKDİR?

*Bu, məqalənin tam rədd edilmədiyini, lakin düzəlişlər tələb olunduğunu göstərir. Müəllif məqaləni rəyçilərin rəylərinə əsasən dəyişiklik edib yenidən göndərməlidir.*

## 29

### JURNALIN QƏBUL FAİZİ (ACCEPTANCE RATE) NƏ DEMƏKDİR?

*"Acceptance rate" jurnala göndərilən məqalələrin neçə faizinin qəbul olunduğunu göstərir. Aşağı faiz daha yüksək keyfiyyət və daha yüksək rəqabət göstəricisidir.*

## 30

### MƏQALƏNİN AKADEMİK DİLİ NƏ QƏDƏR ÖNƏMLİDİR?

*Akademik və qrammatik baxımdan düzgün yazılmış məqalələr daha yüksək qəbul şansına malikdir. Məqalənin akademik yazı baxımından zəif olması jurnal tərəfindən rədd cavabı almasına səbəb ola bilər.*

## 31

## **ORCID** NƏDİR VƏ NİYƏ LAZIMDIR?

*ORCID tədqiqatçılar üçün unikal identifikator nömrəsidir. Bu, müəllifin bütün elmi işlərini bir profil altında toplamağa kömək edir. Məqaləni göndərməzdən öncə vebsayta daxil olaraq özünüzə ORCID hesabı açmağınız tövsiyə olunur.*

## 32

## **DOI** NƏDİR?

*DOI (Digital Object Identifier) məqaləyə jurnal tərəfindən verilən unikal identifikasiya nömrəsidir və onun daimi internet ünvanını təmin edir.*

## 33

## **"PREDATORY"** (YIRTICI) JURNAL NƏDİR?

*"Predatory" jurnallar qazanc əldə etmək məqsədi ilə fəaliyyət göstərən saxta akademik jurnallardır. Bu jurnallar üçün təqdim olunan işlərin keyfiyyəti, tədqiqat işinin rəyçi tərəfindən doğru şəkildə qiymətləndirilməsi, elmə gətirdiyi yenilik əhəmiyyət daşımır. "Predatory" jurnalların narahatlıq doğurmasının əsas səbəbi bəzən onları müəyyən etməyin çətin olmasıdır.*

## 34

## “PREDATORY” JURNALLARI NECƏ MÜƏYYƏN ETMƏK OLAR?

*Aşağıdakı əlamətlər yırtıcı jurnalları tanımağa kömək edir:*

- *Həddindən artıq sürətli qəbul vədləri*

*Məsələn, bir neçə gün ərzində məqalənin qəbul ediləcəyini vəd edirlər. Real elmi jurnallarda rəy prosesi müəyyən bir müddət (həftələr və ya aylar) tələb edir.*

- *Rəyçilərin marketinq dili ilə danışması*

*“2 günə ödəniş edin, məqaləniz dərhal dərc olunsun” kimi mesajlar ciddi risk əlamətidir.*

- *Redaksiya heyəti haqqında qeyri-dəqiq və ya natamam məlumat*

*Jurnalın vebsaytında redaksiya heyəti ya ümumiyyətlə göstərilmir, ya da korporativ məlumatları (təmsil etdiyi qurum, akademik profili və s.) qeyd olunmayan şəxslərdən ibarət olur.*

- *Jurnalın nəşr siyasətinin aydın olmaması*

*Jurnalın vebsaytında "peer-review" prosesi, etik qaydalar, nəşr siyasəti, müəllif hüquqları, məqalənin yazı formatı, məqalənin geriçəkilmə qaydaları və s. haqqında məlumat natamam qeyd edilir və ya ümumiyyətlə qeyd edilmir.*

- *Jurnalın vebsaytında əhatə dairəsinin qeyd edilməməsi yaxud bir-birindən tamamilə fərqli sahələrin qeyd edilməsi*

*Eyni jurnalın çox fərqli və əlaqəsiz sahələrdən məqalə qəbul etməsi şübhəlidir.*

- *Jurnalda çap olunmuş məqalələrin keyfiyyətinin aşağı olması*

*Məqalələrdə dil səhvləri, zəif struktur və zəif akademik dil müşahidə olunur.*

- *Qeyri-peşəkar vebsayt*

*Jurnalın vebsaytında çoxlu qrammatik səhvlər, natamam məlumat və ya köhnə dizayn olması etibarsızlıq göstəricisidir.*

- *Spam e-poçt dəvətləri*

*Sizə jurnallardan tez-tez gələn “məqalə göndərin” dəvətləri predatory jurnal əlamətidir.*

- *Əlaqə vasitələrinin qeyd olunmaması*

*Jurnalın fiziki ünvanı, rəsmi əlaqə vasitələri və ya nəşriyyat haqqında aydın informasiya təqdim olunmur.*

## 35

### TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ APARILAN EMPİRİK TƏDQİQATLAR ÜÇÜN RƏSMİ İCAZƏLƏR NECƏ ALINIR?

*Təhsil müəssisələrində, xüsusilə məktəblərdə aparılan empirik tədqiqatların həyata keçirilməsi üçün müvafiq dövlət qurumlarından (Elm və Təhsil Nazirliyi (ETN), Bakı Şəhər Təhsil İdarəsi (BŞTİ), Region Təhsil İdarələri (RTİ) və s.) rəsmi icazə alınmalıdır. İcazə prosesi tədqiqatın məqsədi, metodologiyası, iştirakçı qrupu və etik məsələləri əhatə edən rəsmi müraciətin təqdim olunması ilə başlayır. Müraciət qiymətləndirildikdən sonra uyğun hesab edildiyi halda tədqiqatın aparılmasına icazə verilir. Bəzi hallarda əlavə olaraq məktəb rəhbərliyinin razılığı və etik komitənin təsdiqi də tələb oluna bilər.*

## 36

### TƏDQİQATLARDA ETİK PRİNSİPLƏRİN TƏMİN EDİLMƏSİ HANSI İNSTİTUSİONAL MEXANİZMLƏRLƏ TƏNZİMLƏNMƏLİDİR?

*Tədqiqatlarda etik prinsiplərin təmin edilməsi əsasən beynəlxalq etik prinsiplər, Etik Komitələr (Ethics Committee / Institutional Review Board – IRB), universitet və tədqiqat institutlarının daxili qaydaları vasitəsilə tənzimlənir. Əgər tədqiqat işinizdə empirik sahə araşdırması varsa, mütləq çalışdığınız/ təhsil aldığınız/ təmsil etdiyiniz qurumda Etik Komitənin olub-olmadığı ilə maraqlanın.*

## 37

### MÜƏSSİSSƏNİN VAHİD ETİK MEXANİZMİ OLMADIQDA TƏDQİQATÇI HANSI ALTERNATİV PROSEDURLARA İSTİNAD ETMƏLİDİR?

*Müəssissənin vahid etik mexanizmi (Etik Komitə, daxili qaydalar və s.) olmadığı hallarda tədqiqatçılar beynəlxalq etik prinsiplər və tanınmış təşkilatların prinsiplərinə istinad etməlidirlər.*